# SƏHİH ƏQİDƏ

## (Sual və Cavablarla)

**MÜƏLLİF:**

**Abdus-Sələm ibn Bərcis**

**Kitabı sual cavab halına saldı**

**Abdullah Raslan ( Şeyx Raslanın oğlu.)**

**Tərcüməçi:**

**Mənsur Cəlilov**

## Rəhmli və Mərhəmətli Allahın adı ilə

Həqiqətən həmd Allaha məxsusdur. Ona həmd edir, Ondan kömək və bağışlanma diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimə hidayət verərsə onu azdıran və kimi də, azdırarsa ona hidayət verən tapılmaz. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd (sallallahu aleyhi səlləm) Onun qulu ve elçisidir.

***“Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”*** [1]

***“Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın (törədib yer üzünə) yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.”*** [2]

***“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar.”*** [3]

Həqiqətən də kəlamların ən doğrusu Allahın kəlamı, yollarin ən xeyirlisi Muhəmmədin (sallallahu aleyhi ve səlləm) yoludur. (Din adı ilə) ən şərli işlər (əməllər) yeniliklərdir. Hər bir yenilik bidətdir, hər bir bidət zəlalətdir və hər bir zəlalət isə oddadır.

Bundan sonra:

Həqiqətən də doğru İslam əqidəsi - dinin əsli, millətin ruhu və şəriətin əsasıdır. Bu əqidə, sabit üsulları, sağlam əsasları və mətin qaydaları ilə başqalarından (dinlərdən) fərqli olaraq, insanların səadətini, rifahını və sevincini qorumuşdur. Buna görə də, açıq əlamətləri, sağlam dəlilləri və hüccətləri ilə sağlam fitrətə,düzgün ağıla və sağlam qəlbə müvafiq olmuşdur.

Buna görə də bütün aləmin bu səhih, saf və təmiz əqidəni öyrənməyə ehtiyacı vardır. Çünki bu əqidə səadətin özəyi, uğurun ruhudur. Ağacda suyun, cismdə ruhun və bədəndə isə sağlamlığın rolu tək, bu (əqidə də) yaşamağın əsasıdır. Daima onun haqda düşünmək və onu zikr etmək vacibdir. Hətta bütün müsəlmanların zehnində öz yerini tapsın. Önümüzdə olan əqidə açıq-aydındır. Heç bir fikrə, xəyala, rəyə və düşüncəyə ehtiyacı yoxdur. Hər bir müsəlmanın üzərinə rəsulların etiqad etdiyi kimi etiqad etməsi vacibdir. Peyğəmbərimizin (sallallahu aleyhi və səlləm) dəvət etdiyi üsullara şəksiz və tərəddüd etmədən inanmalıdır.

Uca Allah buyurur:

“Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi.”[4]

1 Ali İmran, 102
2 Nisa, 1
3 Əhzab, 70-71
4 Bəqərə, 285

Bu qısa faydalı risalə - Şeyx Abdus-Sələm ibn Barcisin (Allah ona rəhmət etsin) kitabindan ixtisar etdiyim risalədir. Hansıki, müsəlman onda İslam əqidəsinin açı- aydın üsullarina və əlamətlərinə, əhəmiyyətli əsaslarına rast gəlir. Hansı ki, onu tərk edə bilməz. Hər bir şeyi (kəliməni) güclü dəlilləri və şahidləri ilə qeyd etdim. Bu kitabı ilk başlayan müsəlmana əqidəni öyrənmək və onun həyatında ehtiyacı olduğu şeylər üçün birinci dərəcə səviyyəsində etdim.

**Yazdı:**

***Əbu Muhəmməd***
***Abdullah ibn Muhəmməd Səid Raslan***

## Birinci dərs

## Rububiyyət tövhidində səhih əqidə

**Sual 1.**
Rububiyyət tövhidində əqidəmiz nədir?

**Cavab:**
Əhli sünnə vəl-camaat etiqad edir ki, Uca Allah yaratmağında, mülkündə və idarəçiliyində təkdir.

**Sual 2.**
Buna dəlil nədir?

**Cavab:**
Uca Allah buyurur:

***"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır."***[5]

Həmçinin uca Allah buyurur:

"Göylərin və yerin hökmü Allahın əlindədir. O, istədiyini yaradır, istədiyinə ancaq qız, istədiyinə də ancaq oğlan verir."[6]

**Sual 3.**

Müşriklər (Allaha şərik qoşanlar) rububiyyət tövhidində ixtilaf etmişdirlərmi?

**Cavab:**

Tövhidin bu qismində insanlardan heç kim – istər müsəlman olsun, istər kafir - (dehrilərdən, yəni ateistlərdən başqa –tərc.) ixtilaf etməmişdir.

Necə ki, Uca Allah kafirlər haqqında buyurmuşdur:

***"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar hökmən: "Allah!"– deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu (bunu) bilmir."***[7]

**Sual 4.**

Əgər müşriklər rububiyyət tövhidinə iman etmişdirlərsə, bəs nə üçün Allahdan başqa özlərinə ilahlar götürürdülər?

**Cavab:**

Müşriklər etiqad edirdilər ki, onların ilahları Allah ilə onlar arasında vasitədir. Onları Allah yanında şəfaətçi götürürdülər. Necə ki, uca Allah buyurur:

***"Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– (deyirlər.) Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz."***[8]

Həmçinin Uca Allah buyurur:

***"O, bütün məbudları bir məbudmu etdi? Həqiqətən, bu, əcaib bir şeydir".***[9]

5 Əraf, 54
6 Şura, 49
7 Loğman, 25
8 Zumər, 3
9 Sad, 5

**Sual 5.**

Əgər rububiyyət tövhidi insanların qəlbində öz yerini tapmışdırsa, bəs nə üçün Allah bunu öz kitabında vurğulamışdır?

**Cavab:**

Allah rububiyyət tövhidini isbat və təkid üçün qeyd etmiş və bunu ibadət tövhidinin vacibliyinə dəlil etmişdir. Deməli rububiyyət tövhidi Allahdan başqa heç bir şeyə ibadət etməməyi gərəkdirmişdir. Uca Allah buyurur:

***“Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahdan) qorxasınız.”***[10]

**Sual 6.**

Rububiyyət tövhidində şirkin batil olmasının ağlı dəlili nədir?

**Cavab:**

Uca Allah bizə rububiyyət tövhidində şirkin batil olmasını xəbər vermişdir. Əgər belə olsaydı, o zaman göylər və yerlər fəsada uğrayardı.

Uca Allah buyurur:

***“Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir ilah yoxdur. Əks təqdirdə hər ilah öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların (Ona) aid etdikləri sifətlərdən uzaqdır.”***[11]

## İkinci dərs

## Ad və sifətlər tövhidindəki səhih əqidə

**Sual 7.**

Ad və sifətlər tövhidində Əhli-Sünnənin əqidəsi nədir?

**Cavab:**

Əhli-Sünnə vəl camaat Allah və rəsulunun (sallAllahu aleyhi və səlləm) Allaha aid isbat etdiyi gözəl ad və uca sifətləri isbat edirlər. Onlar Qurandan və peyğəmbərdən (sallAllahu aleyhi və səlləm) sabit olan hədislərdən kənara çıxmırlar. Bütün sözləri isbat edirlər və onun mənasını Quranın nazil olduğu dildə başa düşürlər, keyfiyyətini isə Allaha həvalə edirlər. Çünki Allah onu özünə xas etmişdir və əhlindən heç kəsə xəbər verməmişdir.

**Sual 8.**

10 Bəqərə, 21
11 Muminin, 91

Şəriətin əsasları nədir, hansı ki, ondan yapışan sabit qalar?

**Cavab:**

1. Allah və rəsulunun (sallAllahu aleyhi və səlləm) Allaha aid isbat etdiyini artırmadan və azaltmadan isbat etmək.

2. Allahı sifətlərində məxluqlara bənzətməkdən çəkindirmək.

Uca Allah buyurur:
***“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.”***[12]

3. Allahın sifətlərinin keyfiyyətini fikirləşməkdən uzaq olmaq.

Uca Allah buyurur:
***- “Onların elmi isə Onu ehtiva edə bilməz!”***[13]

**Sual 9.**

Allahın sifətlərindən (Ərşin üzərinə yüksəlməsi) Ona necə iman edirik?

**Cavab:**

Yüksəlmək sifətini Allaha həqiqi yüksəlmək kimi isbat edirik. Mənasını bilir, keyfiyyətini isə bilmirik.

Onun mənası isə: Ucalıq və yüksəlməkdir.

Ərəb dilində bu cür gəlmiş və bu mənas üzərində də əhli-sünnə vəl camaat ittifaq etmişdir.

Keyfiyyətinə gəldikdə isə, bu ucalığın keyfiyyətini Allahdan başqa heç kəs bilmir və Onun şəriki yoxdur.

**Sual 10.**

Allahın sifətlərindən (eşitmək) Ona necə inanırıq?

**Cavab:**

Uca Allah buyurur:

***“Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.”***[14]

Bu və bunun mislində olan ayələrdən istifadə edib Allahın görmək sifətini isbat edirik.

Ərəb dilində eşitmək – səsləri dərk etmək deməkdir.

Allahın eşitmək sifərini isbat edirik və onunla bütün şeyləri eşidir. Ancaq yaratdıqlarında heç biri Allaha bənzəməz. Bunun keyfiyyətini Allaha həvalə edirik. Demirik ki, necə eşidir? Bu haqda

12 Şura, 11
13 Taha, 110
14 Nisa, 58

elmsiz danışmırıq. Allah bu haqda bizə heç bir şey öyrətməmişdir. Əksinə onu Öz elmində gizlətmişdir.

## Üçüncü dərs

## Üluhiyyət (ibadət) tövhidində səhih əqidə

**Sual 11.**

Üluhiyyət (ibadət) tövhidində əhli-sünnətin əqidəsi nədir?

**Cavab:**

Əhli-sünnənin üluhiyyət tövhidində etiqadı - Allahı ibadətdə təkləşdirmək, Allahla yanaşı heç bir ilaha ibadət etməməkdir. Allahın əmr etdiyi bütün itaətləri -vacib və müstəhəb - hər birini Allaha aid edirlər. Allahdan başqasına səcdə etmirlər, Allahın evindən başqa heç bir yeri təvaf (dövr etmək) etmirlər və Allahdan başqası üçün qurban kəsmirlər. Allahdan başqası üçün nəzir vermilər. Allahdan başqasına and içmirlər. Allahdan başqasına təvəkkül etmirlər və Allahdan başqasını çağırmırlar (dua etmirlər). Bu üluhiyyət tövhididir.

Uca Allah buyurur:

***"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!"***[15]

**Sual 12.**

Üluhiyyət tövhidinin əsası nədir?

**Cavab:**

Allaha şərik qoşmamaq. Ondan Allaha sığınırıq. Şirk – Allaha qarşı edilən ən böyük zülmdür. Uca Allah buyurur:

***"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar."***[16]

Artıq Allah bizə bildirmişdir ki, şirk bütün əməlləri batil edir və insanı İslam ümmətindən çıxarır. Uca Allah buyurur:

***"Əgər (Ona) şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı."***[17]

**Sual 13.**

15 Nisa, 36
16 Nisa, 48
17 Ənam, 88

Müşrik kimdir?

**Cavab:**

Kim ibadətin növlərindən birini Allahdan başqasına sərf edərsə o müşrik və kafirdir.

**Sual 14.**

Duanın Allahdan başqasına edilməməsinə dəlil nədir?

**Cavab:**

Dua ibadətdir və Allah onu əmr etmişdir. Kim Allaha dua edirsə, (Onu) təkləşdirmişdir və o, tövhid əhlindədir. Kim Allahdan başqasına dua etmişsə, o, artıq şirk etmişdir. Uca Allah buyurur:

***“Allahı qoyub, sənə nə bir fayda, nə də bir zərər verə bilməyən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan.”***[18]

Sünnədə Nomən ibn Bəşirdən varid olmuşdur ki, Allah rəsulu (sallAllahu aleyhi və səlləm) dedi: ***“Dua ibadətdir.”***

**Sual 15.**

Məlumdur ki, həqiqətən də peyğəmbər və onların qövmləri arasında münaqişə olmamışdır. Bəs peyğəmbərlərlə onların qövmləri arasında uluhiyyət tövhidində münaqişə baş vermişdirmi?

**Cavab:**

Bəli. Üluhiyyət tövhidində peyğəmbərlər ilə qövmləri arasında münaqişə olmuşdur. Bu tövhidin bəyan olunması və ona dəvət olunması üçün rəsullar göndərilmişdir. Onun bərqərar olması və hüccət olması üçün kitablar endirilmişdir. Necə ki, uca Allah buyurur:

***“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– (deyə), elçi göndərdik.”***[19]

**Sual 16.**

Elçilər öz dəvətlərinə tövhidin hansı növü ilə başlamışdırlar.  Rübubiyyət tövhidi yoxsa Uluhiyyət tövhidi?

**Cavab:**

Rəsullar öz qövmlərini üluhiyyət (ibadət ) tövhidinə dəvətlə başlamışdırlar. Bütün elçilər öz qövmlərinə demişdir:

“Allaha ibadət edin. Sizin Ondan başqa ilahınız yoxdur.”[20]

**Sual 17.**

Müşriklərin öz şirklərində dəlilləri varmı?

18 Yunus, 106
19 Nəhl, 36
20 Əraf, 59

**Cavab:**

Müşriklərin öz şirkləri üçün nə sağlam əqli dəlilləri, nə də elçilərdən dəlilləri yoxdur. Allah əqli dəlillərlə müşriklərin şirklərini batil etmişdir. Uca Allah buyurur:

**De: "Bir deyin görək, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa onların göylərin (yaradılmasında) bir şərikliyi var? Əgər doğru danışanlarsınızsa, mənə bundan əvvəl (nazil olmuş) bir kitab və ya elmdən qalan bir əsər gətirin"**[21]

Bu əqli və qəti dəlildir ki, həqiqətən Allahdan başqa ibadət edilən hər şey batildir. Əgər onlar bir şey yarada bilmirlərsə, onların məxluqları onlara heç bir kömək edə bilməzlər. Yalnız buna qadir olan tək Allahdır. Onlara (ilahlara) ibadət etmək nəyə lazımdır?

**Sual 18.**

(Bu dində) tövhidin önəmi nədir?

**Cavab:**

Əvvəldə qeyd etdiyimiz kimi, tövhid - ən birinci vacib olan şeydir. Allah heç kimdən ondan başqasını qəbul etməyəcək.

## Dördüncü dərs

## İmanın altı şərtində səhih əqidə

**Sual 19.**

İmanın altı ərkanı hansılardır?

**Cavab:**

1. Allaha iman
2. Onun mələklərinə iman
3. Onun kitablarına iman
4. Onun elçilərinə iman
5. Axirət gününə iman
6. Qədərə iman

**Sual 20.**

Allaha iman nəyin üzərində formalaşmışdır?

**Cavab:**

O (iman), rububiyyət, üluhiyyət və ad və sifətlər tövhidində iman etməklə formalaşmışdır.

21 Əhqaf, 4

## Beşinci dərs

## Mələklərə imanda səhih əqidə

**Sual 21.**

Mələklərə iman nədir?

**Cavab:**

Onların vücudlarına iman etmək. (Quranda) zikr olunan adlarına və əməllərinə iman etmək. Uca Allah buyurur: ***“Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də (iman gətirdilər). Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər.”***[22]

Səhih Muslimdə (gələn hədisdə) Cəbrail (aleyhissələm) Muhəmməddən (sallAllahu aleyhi və səlləm) iman barəsində soruşarkən, Allah rəsulu (sallAllahu aleyhi və səlləm) dedi: “İman – Allaha, mələklərinə, kitablarına, elçilərinə, Axirət gününə və qədərin xeyrinə və şərinə iman etməkdir!”

**Sual 22.**

Quranda varid olmuş mələklərin bəzi sifətlərini zikr et.

**Cavab:**

Uca Allah öz kitabında onları bu cür vəsf etmişdir:

***“Göylərdə və yerdə kimlər varsa, (hamısı) Onundur. Onun yanında olanlar Ona ibadət etməyə təşəxxüs göstərmir və (bundan) yorulmurlar.Onlar gecə-gündüz, usanmadan (Onun) şəninə təriflər deyirlər.”***[23]

Həmçinin Uca Allah buyurur:
***“(Kafirlər): “Ər-Rəhman (Özünə )övlad götürdü!”– dedilər. O, pakdır, müqəddəsdir! Əksinə, (o mələklər )möhtərəm qullardır.(Mələklər) Ondan qabaq danışmazlar; onlar ancaq Onun əmrini yerinə yetirərlər.”***[24]

**Sual 23.**

Mələklərin uluhiyyətə xas olan xüsusiyyətləri varmı?

**Cavab:**

Xeyr! Onlar uca Allahın qullarıdır və yaratdıqları məxluqlardan bir məxluqdur. Onlar ibadət olunmağa layiq deyillər. Uca Allah buyurur:

22 Bəqərə, 285
23 Ənbiya, 19-20
24 Ənbiya, 26-27

***“O gün (Allah) onların hamısını toplayacaq, sonra da mələklərə buyuracaq: “Bunlar sizəmi ibadət edirdilər?” (Mələklər) deyəcəklər: “Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi”.***[25]

**Sual 24.**

Onların yaradılış sifətləri necədir?

**Cavab:**

Səhih Muslimdə (gələn hədisdə) Aişə (Allah ondan razı olsun) dedi: “Allah elçisi (sallAllahu aleyhi və səlləm) buyurdu: Mələklər nurdan, cinlər tüstüsüz oddam, Adəm isə sizə vəsf olunan şeydən (palçıqdan) yaradılmışdır!”[26]

Onların yaradılış sifətlərindən – onların qanadlarının olması. Onlardan iki qanadlı, üç qanadlı və dörd qanadlı olanları vardır. Uca Allah buyurur:

***“Göyləri və yeri Yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha həmd olsun! O, xəlq etdiklərindən istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir.”***[27]

Səhih Buxaridə İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (sallAllahu aleyhi və səlləm) Cəbraili altı qanadlı görmüşdür.[28]

**Sual 25.**

Mələklər başqalarının cildinə girmək qüdrətinə malikdirlərmi?

**Cavab:**

Bəli. Allah onlara gözəl cildlərə girmək qüdrəti vermişdir. Necə ki, Cəbrail (aleyhissələm) Məryəm üçün cavan bir insan şəklində, İbrahimə hörmətli qonaq şəklində və Lutun qövmünə əzan endirdikdə başqa cilddə nazil olmuşdur.

**Sual 26.**

Allah müşriklərin “Mələklər Allahın qızlarıdır!” – sözlərini özlərinə rədd etmişdir. Bunu izah et!

**Cavab:**

Uca Allah buyurur:

***“(Kafirlərdən) soruş: “Nəyə görə qızlar sənin Rəbbinin, oğlanlar isə onların olmalıdır?”Yoxsa Biz mələkləri dişi yaratmışıq və onlar da (buna) şahid olublar? Həqiqətən, onlar yalan uydurub deyirlər:“Allah doğmuşdur”. Şübhəsiz ki, onlar yalançıdırlar. Məgər (Allah) qızları oğlanlardan üstünmü tutmuşdur? Sizə nə olub, bu necə mühakimədir***

25 Səba, 40-41
26 Muslim, 2996; Əhməd, 21104
27 Fatir, 1
28 Muslim, 174 və 3232

***yürüdürsünüz? Məgər düşünüb ibrət almayacaqsınız? Yoxsa sizin aydın bir dəliliniz vardır? Əgər doğru deyirsinizsə, kitabınızı gətirin!"***[29]

**Sual 27.**

Cəbrail haqda nə bilirsən?

**Cavab:**

Cəbrail (aleyhissələm) vəhy ilə mükəlləf olunmuşdur. Uca Allah buyurur:

***"Kim Allaha, Onun mələk-lərinə və elçilərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir."***[30]

Peyğəmbər (sallAllahu aleyhi və səlləm) onu (Cəbraili) Elbat adlı yerdə altıyüz qanadlı görmüşdür. O öz əzəmətli qanadları ilə göyüzünü tutmuşdur. Sonra onu Merac gecəsi görmüşdür. Onu öz surətində bu iki vaxtdan başqa heç vaxt görməmişdir. Çox vaxt ona Dihyət Elkəbiynin (səhabə adıdır) surətində gəlmişdir.[31]

**Sual 28.**

Mikail haqqında nə bilirsən?

**Cavab:**

Mikail bitkilərin, (təbiət hadisələrinin) Allahın izni ilə harada və necə bölünməsi ilə mükəlləf olmuşdur. İmam Əhməd Ənəsdən rəvayət etmişdir ki, Peyğəmbər (sallAllahu aleyhi və səlləm) Cəbrailə dedi: Nə üçün mən Mikaili heç gülən görmürəm? (Cəbrail) dedi: Cəhənnəm yaranan gündən bəri Mikail gülməmişdir.[32]

**Sual 29.**

İsrafil haqqında nə bilirsən?

**Cavab:**

İsrafil Rəbbinin əmri ilə sura[33] üç dəfə üfürməklə mükəlləf olmuşdur: Oyanış üfürməsi, həlak edici üfürmə və aləmlərin Rəbbinin qarşısında toplaşmaq üçün olacaq üfürmə. Bəzi alimlər bu üfürmənin iki dəfə olduğunu söyləyərək, uca Allahın bu ayəsini dəlil gətirmişdirlər:

***"Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar."***[34]

29 Saffət, 149-157

30 Bəqərə, 98

31 Səhih Muslimdə Aişə (Allah ondan razı olsun) Allah rəsulundan (sallAllahu aleyhi və səlləm) belə buyurur: "***And olsun ki, O artıq (Cəbraili) uca üfüqdə gördü (Təkfir, 22)"*** ayəsinin mənasını soruşdum. Dedi: Həqiqətən də, o Cəbraildir. Bu iki vaxtdan başqa ona yarandığı surətdə gəlməmişdir. O səmadan enərkən əzəmətli yaradılışı ilə göylər və yer arasında hər bir şeyin qarşısını almışdır."

32 Əhməd, Musnəd, 13376

33 Sur – Böyük bir borudur ki, ona üfürülür.

34 Zumər, 68

Bunlar həmin mələklərdir ki, peyğəmbər (sallAllahu aleyhi və səlləm) gecə namazı duasında onların adını zikr etmişdir:

“Ey göyləri və yeri yaradan, Cəbrailin, Mikailin və İsrafilin Rəbbi olan Allahım. Qeyb aləmini bilən və şahid olan. Sən qulların arasındakı ixtilaflar haqqında hökm verəcəksən. Məni ixtilaf olan şeylərdən haqqa yönəlt. Həqiqətən, sən istədiyini haqqa yönəldənsən.”[35]

**Sual 30.**

Ölüm mələyi kimdir? Onun bu addan başqa adı varmı?

**Cavab:**

Ölüm mələyi ruhları almaq üçün mükəlləf olmuşdur. Uca Allah buyurur:
***De: “Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!”***[36]

Onun Əzrail adı (Quran və Sünnədə) varid olmamışdır. Ancaq ayıdı keçdiyi kimi ölüm mələyi (adı ilə) varid olmuşdur.

**Sual 31.**

Qoruyucu mələklər kimlərdir?

**Cavab:**

Onlar, Adəm övladlarını hər halda - evdə, səfərdə, yatmış və oyaq olduqları halda qorumaq üçün təyin edilmiş mələklərdir. Uca Allah buyurur:
***“Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır. Həqiqətən də, insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir camaata pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur.”***[37]

İbn Abbas (Allah ondan razı olsun) bu kəliməni belə açıqlamışdır. Uca Allah buyurur: “Onları izləyən” – yəni, mələklər onların qarşısından və arxalarından qoruyurlar. Əgər Allahın qədəri (ölüm) gələrsə, onlar (insanları) tərk edirlər.

**Sual 32.**

Hörmətli yazarlar kimdir?

**Cavab:**

35 Muslim, 770; Əhməd, 61106; Nəsai, 31173
36 Səcdə, 11
37 Rad, 11

Hörmətli yazarlar – qulların xeyir və şər əməllərini yazanlardır. Uca Allah buyurur:
***“Həqiqətən, sizin üstünüzdə nəzarətçilər vardır – çox möhtərəm, (əməllərinizi) yazanlar. Onlar sizin nə etdiklərinizi bilirlər.”***[38]

**Sual 33.**

Mələklərin çoxsaylı olmağına dəlil nədir?

**Cavab:**

Artıq peyğəmbər (sallAllahu aleyhi və səlləm) bizə xəbər vermişdir ki, səmada olan “Beytul Məmura” (mələklər) daxil olurlar. Başqa rəvayətdə isə hər gün orada yetmiş min mələk namaz qılır  və bir daha oraya qayıtmırlar.[39]

**Sual 34.**

Mələklərin varlığını inkar edənin hökmü nədir?

**Cavab:**

Kim mələklərin varlığını inkar edərsə, müsəlmanların icması ilə kafir olmuşdur. Uca Allah buyurur:

***“Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən şəxs dərin bir azğınlığa düşmüşdür.”***[40]

## Altıncı dərs

## Nazil olunmuş kitablarda səhih əqidə

**Sual 35.**

Nazil edilmiş kitablara necə inanırıq?

**Cavab:**

1. İman edirik ki, Allah hər bir rəsulu ilə kitab nazil etmişdir. Necə ki, Uca Allah buyurur:
***“Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar.”***[41]

38 İnfitar, 10-12
39 Buxari, 3208, Muslim, 164
40 Nisa, 36
41 Hədid, 25

2. Həmçinin, bilirik ki, bu kitabların mislindən Allah qatında da vardır:

Uca Allah buyurur:

***“De: “Mən Allahın nazil etdiyi Kitaba iman gətirdim.”*** [42]

3. İman edirik ki, bu kitablar başqa birinin kəlamı deyil, yalnız Allahın kəlamıdır. Həqiqətən də, Allah bunları həqiqi şəkildə və istədiyi kimi danışmışdır.

4. İman edirik ki, Kitablara inanmaq, onların içində olan bütün şəri hökmlərə inanmaq deməkdir. Həqiqətən də, o (kitablar) tabe olmaq və onunla əməl etmək üçün nazil olmuşdur.

5. Həqiqətən də, bu kitablar bir-birini yalanlamamış, əksinə təsdiqləmişdirlər.

6. Bu kitablar özlərindən əvvəlki kitabları nəsx etmişdir. (Hökmdən salmışdır.) Necə ki, Quran özündən əvvəlki bütün səmavi kitabları nəsx etmişdir. Uca Allah buyurur:

***“Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik.”*** [43]

Həmçinin uca Allah buyurur:

***“Halbuki bu (Quran) aləmlər üçün öyüd-nəsihətdən başqa bir şey deyildir.”*** [44]

7. Kitablara imanı ümumi şəkildə əhatə edən şeylərə ümumi, təfsilatlı olan şeylərə isə təfsilatlı iman edirik.

**Sual 36.**

Vəhyin növləri hansılardır?

**Cavab:**

1. Vəhyin növlərindən - eşitmə və ya hicab arxasından, yaxud da, arada heç bir vasitə olmadan olan vəhy. Necə ki, Allah Musa (aleyhissələm) ilə heç bir vasitə olmadan danışdı. Uca Allah buyurur:

***“Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı.”*** [45]

2. Vəhyin növlərindən – Allahın vəhyi çatdıran mələyə eşidib, o vəhyi insanların elçisinə çatdırmasını əmr etməsidir. Uca Allah buyurur:

***“Allah insanla ancaq vəhylə və ya pərdə arxasından danışır, yaxud bir elçi göndərir və o da (Allahın )izni ilə Onun istədiyini vəhy edir.”*** [46]

**Sual 37.**

42 Şura, 15
43 Maidə, 48
44 Qələm, 52
45 Əraf, 143
46 Şura, 51

Quranda adları zikr edilən kitablar hansılardır?

**Cavab:**

Allah Musaya nazil etdiyi kitabı Tövrat, İsaya nazil etdiyi kitabı isə İncil, Davuda nazil etdiyi kitabı isə Zəbur adlandırmışdır. Muhəmmədə (sallAllahu aleyhi və salləm) nazil olanı isə Quran adlandırmışdır. Uca Allah İbrahimin və Musanın səhifələrini də zikr etmişdir. Onlara Allahın salamı olsun. Bu kitablara bu cür olunan təfsilatlı şəkildə iman edirik. Adları çəkilməyib ümumi şəkildə adları zikr olunan (kitablara isə) ümumən iman edirik. Uca Allah buyurur:

***“De: “Mən Allahın nazil etdiyi Kitaba iman gətirdim.”***[47]

**Sual 38.**

Allahın sonuncu nazil etdiyi kitab hansıdır?

**Cavab:**

Allahin sonuncu peyğəmbərinə nazil etdiyi kitab Qurandır. O, (Quran) sonuncu səmavi kitabdır və ondan sonra kitab yoxdur.

**Sual 39.**

Qurana aid sifətlər hansılardır?

**Cavab:**

1. Özündən əvvəlki kitabları nəsx etmişdir. Ümumən insanlar və cinlər üçün nazil olub.

2. İnsanın dinində və dünyasında ehtiyacı olan hər şeyi əhatə etmişdir. Uca Allah buyurur: ***“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim.”***[48]

3. Elə bir möcüzədir ki, heç bir insan onun mislində nəsə gətirə bilməz. Uca Allah buyurur***: “De: “Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün (bir yerə) toplaşıb, bir-birinə kömək etsələr də ona bənzərini gətirə bilməzlər”.”***[49]

4. (Quran) artırılmaqdan və azalmaqdan qorunur.

Uca Allah buyurur:

***“Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.”***[50]

## Yeddinci dərs

47 Şura, 15
48 Maidə, 3
49 Isra, 88
50 Hicr, 9

## Aləmlərin Rəbbinin rəsullarına səhih etiqadla inanmaq

**Sual 40.**

Rəsullara iman necə olur?

**Cavab:**

1. Qəti bir imanla təsdiq etmək lazımdır ki, həqiqətən Allah bütün ümmətlərə, Allahın tək olub, Onun heç bir şəriki olmadığına dəvət edən və Ondan başqa ibadət edilən şeylərə küfr etməyə dəvət edən elçilər göndərmişdir.

2. Həqiqətən də, hər biri doğru danışan, təsdiqləyən, saleh, müjdələyən, hörmətli salehlər, təqva sahibləri, əmin olanlar və yola hidayət edənlərdir. Onlar Allahın göndərdiyini (dini) insanlara çatdıranlardır.

3. Həqiqətən də, Allah İbrahimi özünə dost seçmişdir. Həmçinin Muhəmmədi də (sallAllahu aleyhi və səlləm) özünə dost seçmişdir. Musa ilə danışmışdır. İdrisi uca bir məqama yüksəltmişdir. Həmçinin İsa Allahın qulu və elçisidir. Həmçinin, Onun Məryəmə göndərdiyi kəlimə və ondan olan bir ruhdur.

4. Həqiqətən də, Allah bəzilərini digərlərindən fəzilətli etmişdir. Bəzilərinin dərəcəsini digərlərindən üstün etmişdir. Həqiqətən də, Muhəmməd (sallAllahu aleyhi və səlləm) Adəm övladının seyyididir (ağasıdır.) Bu fəxr deyildir. (yəni, o quldur.)

5. Birincisindən sonuncusuna qədər dəvətlərində ixtilaf olmamış və hamısı dində əsas olana (tövhidə) çağırmışdırlar və bu Allahı Rububiyyətində, Uluhiyyətində və Ad və Sifətlərində təkləşdirməsidir.

Uca Allah buyurur:
***“Həqiqətən, Allah dərgahında (qəbul olunan) din, İslamdır!”***[51]

**Sual 41.**

Nəbilərin və Rəsulların sayı neçədir?

**Cavab:**

Rəsulların sayı 315-dir. Nəbilərin sayı isə 124.000-dir. Bu saylar Allah rəsulundan (sallAllahu aleyhi və səlləm) Əbu Uməmənin və Əbu Zərrin rəvayətində sabit olmuşdur.

**Sual 42.**

Rəsul ilə Nəbinin fərqi nədir?

**Cavab:**

51 Ali İmran, 19

Nəbi ilə Rəsul arasındakı fərq:
Nəbi Allah tərəfindən xəbər veriləndir. O Allahın xəbər verdiklərini çatdırmaq üçündür. Əgər Allahın əmrlərinə müxaliflik olarsa və bununla yanaşı yeni bir risalə ilə gəlib təbliğ edərsə, o rəsuldur. Özündən əvvəlki rəsulların şəriətləri ilə əməl edən və heç bir kəsə yeni risalə təbliğ etməyə gəlməyən nəbidir,  rəsul deyildir.

**Sual 43.**

Quranda adları zikr olunan nəbilər və rəsullar kimlərdir?

**Cavab:**

Uca Allah onlardan bir neçəsinin adını zikr etmişdir. Adəm, Nuh, İdris, Nuh, Saleh, İbrahim, İsmayıl, İshaq, Yaqub, Yusuf, Lut, Şuayb, Yunus, Musa, Harun, İlyas, Zəkəriyyə, Yəhya, Elyes, Zilkifli, Davud, Suleyman, Eyyub və Esbat (ümumi zikr edilmişdir), İsa və Muhəmməd (Onlara Allahın salamı olsun)

Uca Allah buyurur:
***"Daha öncə (bir qisim) elçilər barəsində sənə söylədik, (digər) elçilər barəsində isə sənə (heç nə )söyləmədik."***[52]

**Sual 44.**

Rəsullar ibadət olunmaq xüsusiyyətlərinə malikdirlərmi?

**Cavab:**

İman edirik ki, bütün rəsullar və nəbilər məxluqdur. Heç bir (rububiyyət və uluhiyyət) xüsusiyyətlərinə malik deyillər. Uca Allah buyurur:
***"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin ilahınız Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!""***[53]

Həmçinin Uca Allah buyurur:

***"De: "Mən, Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, (özüm üçün) xeyir artırardım və mənə pislik toxunmazdı. Mən sadəcə, iman gətirən bir camaat üçün qorxudan və müjdələyənəm"."***[54]

Onlar (rəsullar) risalə ilə şərəflənmişdirlər və Allahın qullarından bir qul olduqlarına iman edirik. (Allah) onları qul kimi ən uca məqamda vəsf etmişdir.

**Sual 45.**

Ən sonuncu nəbi kimdir?

**Cavab:**

52 Nisa, 164
53 Kəhf, 110
54 Əraf, 188

İman edirik ki, Allah bütün risalətlərə Muhəmmədin (sallAllahu aleyhi və səlləm) risaləti ilə son qoyub. Allah onu ümumən – cinlər və insanlar üçün göndərmişdir. Uca Allah buyurur:
***"De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm."*** [55]

Həmçinin Uca Allah buyurur:

***"Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən (bir peyğəmbər) kimi göndərdik."*** [56]

**Sual 46.**

(Öncəki) rəsullar bizim peyğımbər haqqında müjdə vermişdirlərmi?

**Cavab:**

Bəli. Rəsullar, Muhəmmədin (sallAllahu aleyhi və səlləm) göndərilməsi haqda artıq xəbər vermişdirlər. Uca Allah buyurur:
**"Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl (nazil edilmiş) Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı elçisi ilə (sizi) müjdələyən bir elçisiyəm!" (Allahın elçisi) onlara açıq-aydın dəlillər gətirdikdə onlar: "Bu, aşkar bir sehrdir!"– dedilər."** [57]

Səhih Muslimdə Əbu Hureyra buyurur ki, Allah rəsulu dedi: "Muhəmmədin nəfsi əlində olana and olsun ki, bu ümmətdən istər yəhudi, istər nəsrani mənim adımı eşidib və risalətimə iman etməzsə, o, od əhlindədir."[58]

**Sual 47.**

Muhəmmədin risalətini yalan sayanın hökmü nədir?

**Cavab:**

Allah rəsulunun (sallAllahu aleyhi və səlləm) risalətini yalan sayan icma ilə kafir olmuşdur. Hətta öz rəsullarına iman edib, onlara tabe olduğunu zənn etsə belə.
Uca Allah buyurur:
***"Nuh tayfası da elçiləri yalançı saydı."*** [59]

(Allah) onları bütün rəsulları inkar etmiş kimi zikr edir, bununla yanaşı Nuhdan qabaq rəsul olmamışdır.

**Sual 48.**

Muhəmməddən (sallAllahu aleyhi və səlləm) sonra peyğəmbərlik iddia edənin hökmü nədir?
**Cavab:**

İman edirik ki, Muhəmməddən (sallAllahu aleyhi və səlləm) sonra peyğəmbər gəlməyəcək. Kim ondan sonra peyğəmbərlik iddia edərsə kafir olmuşdur.

55 Əraf, 158
56 Səba, 28
57 Saff, 6
58 Muslim, 103
59 Şuəra, 105

Uca Allah buyurur:

***"Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur."*[60]**

**Sual 49.**

Nəbilərin birinin risalətini inkar edənin hökmü nədir?

**Cavab:**

Kim nəbilərdən birinin göndərilməsini inkar edərsə kafir olmuşdur.

Uca Allah buyurur:

***"Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: "Biz (o elçilərin) bəzisinə inanır, bəzilərinə isə inanmırıq!"– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.Allaha və Onun elçilərinə iman gətirən və onlardan heç birinin arasında fərq qoymayanlara Allah öz mükafatlarını verəcəkdir. Allah Bağışlayandır, Rəhmlidir."*[61]**

## Səkkizinci dərs

## Axirət gününə inanmaqda səhih əqidə

**Sual 50.**

Axirət günü nədir?

**Cavab:**

O (Axirət günü) Qiyamətdə baş verən bütün şeylər və hadisələrdir. Əhli-Sünnət buna yəqinliklə inanır.

Uca Allah buyurur:

***"O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar."*[62]**

Uca Allah buyurur:

***"Özündən başqa ilah olmayan Allah, (baş verəcəyinə) şübhə edilməyən Qiyamət günü sizi mütləq( bir yerə) toplayacaqdır. (Verdiyi) xəbərdə Allahdan daha doğru (söyləyən) kim ola bilər?"*[63]**

Uca Allah buyurur:

60 Əhzab, 40
61 Nisa, 150-152
62 Bəqərə, 4
63 Nisa, 87

***"O Saat mütləq gələcəkdir. Odur ki, Sən (onları) gözəl tərzdə bağışla."*** [64]

**Sual 51.**

Oyanış nədir və ona dəlil nədir?

**Cavab:**

Oyanış: Ölülərin dirilməsidir.

Uca Allah buyurur:

***"Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar."*** [65]

**Sual 52.**

Əməl səhifələrinə iman necə olur?

**Cavab:**

Əməl dəftərlərinə sağdan və arxa tərəfdən soldan veriləcəyinə iman edirik.

Uca Allah buyurur:

***"Kitabı sağ əlinə verilən deyəcəkdir: "Budur, oxuyun kitabımı!"*** [66]

Uca Allah buyurur:

***"Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi!Sual tereziye iman necedir?"*** [67]

**Sual 53.**

Tərəziyə iman necədir?

**Cavab:**

Tərəzinin Qiyamət günü qoyulacağına və heç bir kəsə zərrə zülm olunmayacağına iman edirik.

Uca Allah buyurur:

***"(O gün) məhz tərəziləri ağır gələnlər nicat tapacaqlar."*** [68]

**Sual 54.**

Şəfaətin neçə növü var?

**Cavab:**

64 Hicr, 85
65 Zumər, 68
66 Haqqa, 19
67 Haqqa, 25
68 Muminun, 102

1. Ən əzəmətli şəfaət: Bu şəfaət Allah rəsuluna xasdır. Bu şəfaət Allahın Sirat üzərindəkilərə hökm edəcəyi zaman baş verəcəkdir.

2. Cənnət qapılarının əhli üçün açılmasına edilən şəfaət. Bu da Allah rəsuluna xasdır.

3. Əzabın yüngülləşdirilməsi üçün edilən şəfaət. Bu şəfaət də Allah rəsuluna xasdır. O vaxt ki, öz əmisi Əbu Talibin (Cəhənnəm) əzabının yüngülləşməsi üçün edilən şəfaətdir. Onu (Allah rəsulunu) qoruduğu və qəzəblənmədiyi üçün olan mükafatdır.

4. Cənnət əhlinin dərəcələrinin qaldırılması üçün olan şəfaət. Bu şəfaət də Allah rəsuluna xasdır. Bəzi elm əhli deyib ki, bu Allah rəsuluna xas deyil.

5. Böyük günah sahiblərinə edilən şəfaət. Onlar Allaha asi olan töhid əhlidir. Günahlarına görə oda düşmüşlər. (Şəfaət) onları oradan çıxarmaq üçündür. Bu şəfaəti Allah rəsulundan başqa müsəlman, mələklər, salehlər və şəhidlər edəcəklər.

Quran və oruc öz sahibinə Qiyamət günü şəfaət edəcəkdir. Bununla yanaşı övladlar öz valideynlərinə şəfaət edəcəklər.

**Sual 55.**

Hovuz nədir və onun vəsfi necədir?

**Cavab:**

Hovuza iman – peyğəmbərin hovuzuna iman deməkdir. Onun suyu süddən ağdır. Baldan şirindir. Misk qoxusundan daha gözəldir. Ondan kim bir dəfə içərsə ömürlük bir daha susamaz.[69]

Allah rəsuluna (sallAllahu aleyhi və səlləm) tabe olanlar ona yaxışlaşdırılacaq. Dində yenilik edənlər isə, ondan uzaqlaşdırılacaqlar. Onlara “uzaqlaşın-uzaqlaşın” deyiləcəkdir.

**Sual 56.**

Sirat nədir və insanlar onun üzərindən necə keçəcəklər?

**Cavab:**

Siratın Cəhənnəm üzərində olması və insanların onun üzərindən əməlləri miqdarında yürüməsinə iman etmək – Sirata iman etməkdir. Birincilər işıq sürəti kimi, sonrakılar külək sürəti kimi, sonrakılar quş sürəti ilə Sıratın üzərindən keçəcəklər. Allah rəsulu (sallAllahu aleyhi və səlləm) Siratın üzərində durub deyəcəkdir: “Ey Rəbbim, asanlaşdır, asanlaşdır.”

Hətta elə insanlar olacaqdır ki, əməlləri azalacaq və iməkləyərək keçəcəklər. Sirat körpüsünün üzərində qırmaq (və ya ona bənzər bir şey) olacaq, oradan keçənləri götürməklə əmr olunacaq. Qırmağın toxunub yaralananlar (lakin keçənlər) nicat tapacaq. Siratdan yıxılanalar isə oda düşəcəkdir. Qiyamət günü baş verən, Kitab və Sünnədə varid olan bütün xəbərlərə iman edirik. Allah bizi (o günün) qorxusundan qorusun!

69 Buxari, 2079; Muslim, 2292

## Doqquzuncu dərs

## Qəza və qədərdə səhih əqidə

**Sual 57.**

Qəza və qədərə iman necədir?

**Cavab:**

Allahın bütün məxluqlarının qədərini təqdir etməsinə yəqinliklə iman edirik. Həqiqətən də, Allahın istədikləri olur və istəmədikləri isə olmur.

Uca Allah buyurur:

***"Həqiqətən də, hər şeyi qədərində yaratdıq"***[70]

**Sual 58.**

Qədərin neçə mərtəbəsi var?

**Cavab:**

Qədərin dörd mərtəbəsi vardır:
**Birinci:** İman edirik ki, Allah hər şeyi bilir. Keçmişdə olanlar, indi olanları və olmayan şeylərin necə olacağını, hər şeyi əhatə edən geniş elmi ilə bilir. Hər şeyi olmadan öncə bilir. Elmində unutqanlıq baş vermir.

**İkinci:** Yazıdır. Allahın İman edirik ki, Allah Qiyamət gününə qədər olan bütün şeyləri Lövhi Məhvuzda yazıb.

Uca Allah buyurur:

***(Firon )dedi: "Bəs əvvəlki nəsillərin halı necə olacaq?" (Musa) dedi: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan bir Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!"***[71]

**Üçüncü:** İstəkdir. Allahın göydə və yerdə olan hər bir şeyin (olmasını) istəməyinə iman etməkdir. Heç bir şey O, istəmədikcə olmur. İstədiyi hər bir şey olur, istəmədikləri isə olmur.

Uca Allah buyurur:

***Bir şeyi (yaratmaq) istədikdə ona təkcə: "Ol!" deyər, o da olar.***[72]

**Dördüncü:** Yaratmaqdır. Uca Allah əməl edəni və onun əməllərini yaratmışdır. Hər bir hərəkət edəni və onun hərəkəti, hər bir sükut edənin və onun sükut etməsini yaratmışdır.

Uca Allah buyurur:

70 Qələm, 49
71 Taha, 51-52
72 Yasin, 82

***“Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır”.*** [73]

**Sual 59.**

Qulların əməllərində səhih olan əqidə nədir?

**Cavab:**

Qulların etdikləri əməllərin onların istəyi və iradəsi ilə olmasına iman edirik. Uca Allah onları, onların istəklərini, sözlərini və əməllərini yaratmışdır. Sözləri və əməlləri (insanlar) özləri edir və onların özlərinə qaytarılır. Bu şey üzərində də, (bu əməl və ya sözə görə) ya savab qazanacaqlar, ya da əzaba düçar olacaqlar. Onlar (qullar) Allahın onlar üçün yazdığından başqa heçnə edə bilməzlər. Allahın istəyi olmadan heç bir şey istəyə bilməzlər.

Uca Allah buyurur:

***Həqiqətən, bu bir ibrətdir. İstəyən, Rəbbinə doğru aparan bir yol tutar. Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz! Həqiqətən, Allah Biləndir, Müdrikdir!*** [74]

**Sual 60.**

Hər şeyin əvvəlcədən qədərdə yazılması, bizim əməl etməyimizə maneədir. Qədərə etimad etmək vacibdirmi?

**Cavab:**

İman edirik ki, hər şeyin əvvəlcədən yazılması bizim əməl etməyimizə maneə deyil. Allah rəsulu (sallAllahu aleyhi və səlləm) buyurur: “Əməl edin! Hər kəsə etdiyi asanlaşdırılmışdır. ” Sonra isə bu ayəni oxudu:

***Kim (haqqını) verir və (Allahdan) qorxursa, və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək (Rəbbinə) ehtiyacı olmadığını güman edirsə və ən gözəl olanı (lə ilahə illəllahı) yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik.*** [75]

Qədərdə olan şeylər üçün səbəblər vardır ki, ona çatdırır. Necə ki, nigah uşaq olmasına səbəbdir. Əmək torpağın yetişməsi üçün səbəbdir. Həmçinin saleh əməllər Cənnətə girmək üçün səbəbdir. Pis əməllər isə Cəhənnəmə girmək üçün səbəbdir.

## Onuncu dərs

## İmanda səhih əqidə

**Sual 61.**

73 Saffət, 96
74 İnsan, 29-30
75 Leyl, 5-10

Əhli-Sünnətin imanda etiqadı nədir?

**Cavab:**

İman dillə demək – Yəni, şəhadət kəlimələsini tələffüz etmək. Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və Muhəmməd (sallallahu aleyhi və səlləm) onun elçisidir. Qəlb ilə etiqad etmək. Tam yəqinliklə (şəkk və şübhəsiz) tövhid kəlimələsini təsdiq etməkdir və onu əməllərdə göstərməkdir.

**Sual 62.**

İman artıb azalırmı?

**Cavab:**

Bəli, iman itaətlə artır və asiliklə azalır.

Uca Allah buyurur:

***(Bəzi) adamlar onlara: "Camaat sizə qarşı (ordu) toplayıbdır, onlardan qorxun!"– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"– dedilər.***[76]

Uca Allah buyurur:

***Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər,***[77]

Allah rəsulu (sallAllahu aleyhi və səlləm) buyurur:
"İmanı ən kamil olan momin ən gözəl əxlaqı olandır!"[78]

(İnsan) əgər gözəl əxlaqla vəsf olunursa, o, ən kamil imanlı mömindir. Ondan başqa əxlaqlı olanlar isə imanca naqislərdir.

**Sual 63.**

Etiqad olmadan iman doğru olarmı?

**Cavab:**

Etiqadsız (deyilən) söz və (edilən) əməl iman sayılmır. Çünki bu münafiqlərin imanıdır. Uca Allah buyurur:

***İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq"– deyirlər.***[79]

**Sual 64.**

İman mücərrəd (olaraq, təkcə) bilməkdirmi?

76 Ali İmran, 173
77 Ənfal, 2
78 Əbu Davud Sünən, 4062; Əhməd, 2/250; Albani, Səhih Əbi Davud, 4682
79 Bəqərə, 8

**Cavab:**

O (yəni, iman) təkcə bilmək deyildir. O kafirlərin və inadkarların imanıdır.

Uca Allah buyurur:

***Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!*** [80]

Uca Allah buyurur:

***Əslində onlar səni yalançı hesab etmirlər. Lakin zalımlar Alla-hın ayələrini inadla inkar edirlər.*** [81]

**Sual 65.**

Dillə deyib, (qəlblə) etiqad edib, fəqət əməlsiz iman olarmı?

**Cavab:**

Dillə deyib, (qəlblə) etiqad edib, fəqət əməlsiz iman olmaz. Çünki uca Allah imanı əməl adlandıraraq buyurur:

***Allah sizin imanınızı puç etməz.*** [82]

Yəni, qüdsə tərəf qıldıqları namazları.

İki səhihdə (Buxari və Muslim) İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah rəsulu (sallAllahu aleyhi və səlləm) Vəfd ibnul Qahsa dedi: “Sizə dörd şey əmr edimmi? Allaha iman etmək. Heç bilirsizmi Allaha iman etmək nədir? Allahın tək olduğuna şəhadət etmək Namaz qılmaq, zəkat vermək, ramazanda oruc tutmaq və qənimətlərin beşdə birini paylamaq!”[83]

**Sual 66.**

Təkfirin hökmü nədir?

**Cavab:**

Təkfir Allah rəsulunun haqqıdır. Allah və rəsulunun, həmçinin müsəlmanların onun üzərində icma etdiyi şəxsdən başqa heç kimi təkfir etmirik. Kimsə birini, küfrü Quran və Sünnətlə, eləcə də, müsəlmanların icması ilə küfr olmayan şeylə təkfir edərsə, o insana şiddətli xəbərdarlıq edilir və cəzalanmağı haqq edir. “Kim bir mömünü küfrlə ittiham edərsə, sanki onu öldürmüş kimidir.”[84]

**Sual 67.**

Ümumi təkfir ilə xüsusi təkfir arasında fərq nədir?

80 Nəml, 14
81 Ənam, 33
82 Bəqərə, 143
83 Buxari, 2557
84 Buxari

**Cavab:**

**Ümumi təkfir** – ümumi əzab (vədi) kimidir. Lazımdır ki, söz ümumi, qeydsiz deyilsin. Necə ki, imamlarımız deyiblər ki, kim "Quran məxluqdur!" desə, o kafirdir. İbn Xuzeymə dediyi kimi, kim Allahın yeddi qat səmanın üzərində olmasını deməsə kafirdir. Qanı da, malı da halaldır və onun malı qənimətdir.

**Müəyyən təkfir (xüsusi təkfir)** – Onun üçün şərtlərin yerinə gəlməsi və maneələrin aradan qalxması lazımdır. Ümumi təkfir xüsusi təkfiri vacib etmir. Hansısa bir şəxsdə (küfr) baş veribsə, şərtlər yerinə gəlmədikcə və maneələr aradan qalxmadıqca o kəs təkfir olunmur.

## On birinci dərs

## Böyük günah edənin hökmündə səhih əqidə

**Sual 68.**

Böyük günah edənin hökmü nədir?

**Cavab:**

Etiqad edirik ki, (insanda) – halal bilmək və vacibləri inkar edərək tərk etmək kimi - küfr vəsfi baş verməyə qədər, şirkdən başqa digər bütün böyük günahlar insanı dindən çıxartmır. Şirkdən aşağı günahlar sahibini əbədi olaraq Cəhənnəmə salmır.

Uca Allah buyurur:

***Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar.*** [85]

Bu ayə dəlildir ki, günah sahibləri Allahın istəyi altındadır. Əgər Allah istəsə öz minnəti və rəhməti ilə bağışlayar, əgər istəsə günah müqabilində onu oda daxil edər ki, onun günahlarını odla təmizləsin, daha sonra isə onu oddan tövhidinə görə çıxartsın və Cənnətinə salsın!

**Sual 69.**

Böyük günah sahibləri kamil imana sahibdirlərmi?

**Cavab:**

Xeyr! O mömindir, lakin naqis imanlıdır. Çünki uca Allah öz kitabında həddi aşmaq və digər günahları sadalayaraq, onu edəndə imanın olduğunu isbat etmişdir. O imanı ilə mömin, günahları ilə fasiqdir. Uca Allah buyurur:

***Ey iman gətirənlər! Öldürülənlərə görə qisas almaq sizə vacib edildi. Azad kəsə görə azad olandan, köləyə görə kölədən, qadına görə qadından (qisas alın!) Əgər (qatil) qardaşı (ölənin varisləri) tərəfindən (qanbahası müqabilində) bir şeylə əfv edilsə, onda insafla davranmalı və***

85 Nisa, 48

***(qanbahası) ona müvafiq qaydada ödənilməlidir. Bu, Rəbbiniz tərəfindən bir yüngülləşdirmə və mərhəmətdir. Bundan sonra kim həddi aşsa, onun üçün üzücü bir əzab vardır.***[86]

Uca (Allah) öldürəndə də, ölәndə də imanın olduğunu isbat etdi və möminlərdən saydı.

**Sual 70.**

Bir insanı fasiq  və müsəlman adlandırmaqda maneə varmı?

**Cavab:**

Fisq əmələdənə ümumən fasiq deməк də, maneə yoxdur. İnsanın müsəlam adlandırılması isə ona İslam əhkamlarının tətbiq olunmasıdır. Abdullah adlı səhabənin hekayəsi buna dəlildir  ki, Buxari öz Səhihində bu məsələni açıqlanması üçün rəvayət etmişdir. O zaman ki, Abdullah içki içərək Allah rəsulunun (sallAllahu aleyhi və səlləm) yanına gəlir və səhabələrdən biri: “Artıq neçə dəfədir ki, onla (yəni, içərək) gəlir” deyir. Allah rəsulu (sallAllahu aleyi və səlləm) buyurur: “Ona lənət etmə, həqiqətən, o, Allah və rəsulunu sevir!”[87]

İnsan İslamdan mücərrəd böyük günah etməklə çıxmır. Əksinə (Allah rəsulu) onda imanı təsdiq etmişdir. Baxmayaraq ki, o bu cür böyük günah etmişdir.

**Sual 71.**

Küfrün, şirkin, zülmün və fisqin qismləri hansıdır?

**Cavab:**

Hər bir küfr, şirk, zülm, fisq, nifaq şəri dəlillərlə iki qismə bölünmüşdür:

1. Böyük. İnsanı millətdən çıxarır və dinin əslini yox edir.
2. Kiçik. İmanın kamilliyinə zərər verir və sahibini imandan çıxarmır. Bu cür qismlərə bölgü yalnız sələfilərə aiddir. (Allah onlara rəhm etsin!) Bu ümmətin böyük alimi, Quranın tərcüməçisi olan İbn Abbas (Allah ondan razı olsun) isbat etmişdir ki, həqiqətən də, dindən çıxarmayan küfr, zülmə aparmayan zülm və fasiq etməyən fisq vardır.

**Sual 72.**

Böyük küfrə, böyük zülmə və böyük fisqə aid misallar zikr elə.

**Cavab:**

1. Böyük şirkə misal: Allahdan başqasına dua etmək.

Uca Allah buyurur:

***Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir tanrıya ibadət edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar!***[88]

2. Böyük zülmə misal: Allahdan qeyrisinə dua etmək.

86 Bəqərə, 178
87 Buxari
88 Muminun, 117

Uca Allah buyurur:

***Allahı qoyub, sənə nə bir fayda, nə də bir zərər verə bilməyən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan.***[89]

3. Böyük fisqə misal: İblisin fisqi

Uca Allah buyurur:

***Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– demişdik. İblisdən başqa hamısı səcdə etdi. (İblis) cinlərdən idi. O, Rəbbinin əmrinə boyun əymədi.***[90]

**Sual 73.**

Kiçik küfrə, kiçik zülmə, kiçik fisqə aid misal zikr elə.

**Cavab:**

1. Kiçik şirkə misal: Allah rəsulu (sallAllahu aleyhi və səlləm) buyurmuşdur: "Kim Allahdan başqasına and içərsə, artıq küfr etmişdir."[91]

2. Kiçik zülmə misal:

Uca Allah buyurur:

***Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan oda girəcəklər.***[92]

3. Kiçik fisqə misal: Allah rəsulu (sallAlahu aleyhi və səlləm) buyurur:
"Müsəlmanı söymək fasiqlik, öldürmək isə küfrdür!"[93]

## On ikinci dərs

## Allah rəsulunun səhabələrinə qarşı olan səhih əqidə

**Sual 74.**

Peyğəmbərin (sallAllahu aleyhi və səlləm) səhabələrinə qarşı olan əqidəmiz nədir?

**Cavab:**

89 Yunus, 106
90 Kəhf, 50
91 Tirmizi rəvayət etmişdir (1400), Albani öz səhihində səhihləşdirmişdir. (2042)
92 Nisa, 10
93 Buxari, 40; Muslim, 116

Etiqadımız – Allah rəsulunun (sallAllahu aleyhi və səlləm) səhabələrini sevmək, onları dost tutmaq, onlardan razı qalmaq, onlar üçün bağışlanma diləmək və onlar haqqında xoş söz söyləməkdir.

Uca Allah buyurur:

***Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. (Allah) onlar üçün (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur.***[94]

Allah (səhabələrdən) "gözəl şəkildə tabe olmaq" şərtini qoymadan belə razı olmuşdur. Onlara tabe olanlardan isə, səhabələrə gözəl şəkildə tabe olduqca razı qalar. Allah kimdən razı qalarsa, ona bir daha qəzəbi tutmaz.

Səhih Muslimdə Allah rəsulununun (sallallahu aleyhi və səlləm) belə buyurduğu varid olmuşdur: "Ağac altında beyət edənlər oda (Cəhənnəmə) girməcəklər!"[95]

**Sual 75.**

Mühacirlərin fəziləti haqqında danış?

**Cavab:**

Allah mühacirləri (kitabında) zikr etmiş və onları sadiqlər adlandırmışdır. Uca Allah buyurur:

***(Qənimət həmçinin) yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır.***[96]

**Sual 76.**

Ənsarların fəziləti haqqında danış?

**Cavab:**

Allah ənsarları (kitabında) zikr etmiş və buyurmuşdur:

***(Mühacirlərdən Mədinədə) əvvəl (orada) yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.***[97]

94 Töbvə, 100
95 Muslim, 2496
96 Həşr, 8
97 Həşr, 9

Ənəsdən rəvayət edir ki, Allah rəsulu (sallAllahu aleyhi və səlləm) dedi:
Ənsarları sevmək imanın, dil uzatmaq isə münafiqliyin əlamətlərindəndir.[98]

**Sual 77.**

Səhabələrdən sonra gələnlərin mövqeyi necə olmalıdır?

**Cavab:**

Allah (Öz kitabında) onları, Allah rəsuluna (sallAllahu aleyhi və səlləm) və səhabələrə gözəl şəkildə tabe olan möminlər kimi zikr etmişdir.

Uca Allah buyurur:

***(Səhabələrdən) sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"[99]***

**Sual 78.**

Səhabələrə dil uzadanların hökmü nədir?

**Cavab:**

Uca Allah buyurur:

***Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu (əkin) cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir. (Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir) ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir.[100]***

İmam Məlik (Allah ona rəhmət etsin) buyurur:
"Kim səhər oyandıqda qəlbində Allah rəsulunun (sallAllahu aleyhi və səlləm) əshabına qarşı qəzəb hiss edərsə, bu ayənin hökmü altına düşər"[101]

**Sual 79.**

Səhabələrin hər birinin dərəcəsi eynidirmi? Yoxsa bir-birilərindən üstünlükləri vardır?

**Cavab:**

Uca Allah buyurur:

***Sizlərdən (Məkkənin) fəthindən əvvəl xərcləyib döyüşənlər (başqaları ilə) eyni deyillər. Onların dərəcəsi (mallarını fəthdən )sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma***

98 Buxari
99 Həşr, 10
100 Fəth, 29
101 Hilyətul Əuliyyə, 3/113

***Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır.***[102]

Bu ayə dəlildir ki, onlar eyni dərəcədə deyildirlər. Onlar dərəcə baxımından bir-birilərindən fərqlənirlər.

**Sual 80.**

Səhabələri söyməyin qadağan olunması haqda dəlilləri zikr et.

**Cavab:**

İki Səhihdə (Buxari və Muslim) Əbu Səid əl-Xudri rəvayət edir ki, Allah rəsulu (sallAllahu aleyhi və səlləm) dedi: "Mənim səhabələrimi söyməyin. Əgər sizdən biriniz Uhud dağı qədər qızıl (Allah yolunda) xərcləyərsə, onların bir ovuc, hətta yarısına belə çatmaz."[103]

Hədisin mənası: Onların ödədikləri, səhabələrin nə fəzilətinə, nə də ödədiklərinin yarısına belə çatmaz.

**Sual 81.**

Allah rəsulunun (sallAllahu aleyhi və səlləm) səhabələrə xeyirdə şahidliyini zikr et.

**Cavab:**

İki Səhihdə (Buxari və Muslim) İmran ibn Huseyn rəvayət edir ki, Allah rəsulu (sallAllahu aleyhi və səlləm) buyurdu: "Ən xeyirli insanlar mənim əsrimdə yaşayanlardır, sonra onlardan sonra gələnlər, sonra onlardan sonra gələnlərdir."[104]

Sonra İmran öz əsrindən sonra iki yoxsa üç əsr dedi.

**Sual 82.**

Bədr əhlinin fəzilətini zikr et!

**Cavab:**

İki Səhihdə (Buxari və Muslim) Əli ibn Əbu Talib rəvayət edir ki, Allah rəsulu (sallAllahu aleyhi və səlləm) Hatim ibn Bəltanın hədisində (səhabəyə) dedi: "Həqiqətən, o Bədri görüb (vuruşub). Səni düşündürən nədir? Allah Bədr əhlinə baxıb demişdir: "İstədiyinizi edin, artıq sizi bağışladım!""[105]

**Sual 83.**

Ridvan beyəti etmiş səhabələrin fəzilətini zikr et.

**Cavab:**

102 Hədid, 10
103 Buxari, 4674; Muslim, 2041, 2154
104 Buxari, 2651; Muslim, 2544
105 Buxari, 4007; Muslim, 2494

Səhih Muslimdə Cabir ibn Abdullah (Allah ondan razı olsun) dedi: Ummu əl-Mubəşşirmənə xəbər verdi ki, Allah rəsulunun (sallallahu aleyhi və səlləm) Hafsın yanında belə dediuini eşidib: "Allahın izni ilə ağac altında beyət edən səhabələrin oda (Cəhənnəmə) girməyəcəklər."

Onların ümumi sayı min dörd yüzdən çox idi. Əbubəkr, Ömər, Osman və Əli (də onlardandır.)

**Sual 84.**

Səhabələrin fəzilətcə dərəcələri necədir?

**Cavab:**

Əhli-Sünnə etiqad edir ki, Allah rəsulundan (sallAllahu aleyhi və səlləm) sonra ümmətin ən fəzilətli insanı Əbu Bəkr əs-Siddiqdir. Sonra Ömər əl-Fəruqdur. Bu səhabə və tabiinlərin icmasıdır. Onlardan heç kim bu məsələdə ixtilaf etməmişdir. Əhli-Sünnə üçüncü olaraq Osman ibnul Əffanı dəyənləndirir. Dördüncü isə Əlini dəyərləndirir. (Allah onlardan razı olsun)

## On üçüncü dərs

## Allah Nəbisinin əhli-beytinə olan səhih əqidə

**Sual 85.**

Allah nəbisinin (sallAllahu aleyhi və səlləm) Əhli-Beyti haqqında əqidəmiz nədir?

**Cavab:**

Allah nəbisinin (sallAllahu aleyhi və səlləm) əhli-beytinin sevilməsi, onların fəziləti və şərəfi əqidəmizdəndir. Allah rəsulunun (sallAllahu aleyhi və səlləm) vəsiyyətinə əməl edərək: "Əhli-beyt haqqında sizə Allahı xatırladıram, əhli-beytim haqda sizə Allahı xatırladıram."[106]

**Sual 86.**

Allah nəbisinin (sallAllahu aleyhi və səlləm) həyat yoldaşları əhli-beytdəndirmi?

**Cavab:**

Bəli. Uca Allah onlara müraciətində demişdir: ***"Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, (hər şeydən) Xəbərdardır"***[107]

İbn Kəsir (Allah ona rəhmət etsin) təfsirində demişdir: "Bu ayə dəlildir ki, Allah nəbisinin (salAllahu aleyhi və səlləm zövcələri əhli-beytdəndir. Çünki onlar (zövcələr) bu ayənin nazil

106 Muslim, Səhih
107 Əhzab, 33-34

olma səbəbidirlər. Ayənin nazil olmasına səbəb olmaq, bir sözlə o ayənin hökmünə daxil olmaq deməkdir.”[108]

## On dördüncü dərs

## Övliyaların kəramətində səhih əqidə

**Sual 87.**

Övliyaların kəraməti haqqında əqidəmiz nədir? Kəramətlər baş verirmi?

**Cavab:**

Əhli-Sünnə vəl cəmaa (Quran və Sünnədə) varid olan çoxsaylı dəlillərlə, Allahın övliyalarında kəramətin olmasına etiqad edir.

**Sual 88.**

Övliyaların tərifi nədir?

**Cavab:**

Övliya – şəriətin əmr etdiklərini edən və çəkindirdiklərindən çəkinən kimsədir. Uca Allah buyurur:

***Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və (Allahdan) qorxmuşlar.***[109]

Övliyalıq iman və təqva ilə olur.

**Sual 89.**

Kəramətin tərifi nədir?

**Cavab:**

Kəramət – İnsanların adət etdiyi şeylərdən xaric bir şeydir. Allah onu öz övliyalarından olan bir övliyanın əli ilə edir. Onun üçün dini və dünyasına kömək edir. Lakin Allah dostlarının kəraməti peyğəmbərlərin möcüzələrinə çatmır.

**Sual 90.**

Allahın övliyalarında verdiyi bəzi kəramətləri zikr elə.

**Cavab:**

108 İbn Kəsirin təfsiri, 2/114
109 Yunus, 62-63

Allahın övliyalarına (verdiyi) kəramətlərdən:

1 – Kəhf camaatının hekayəsi

2 – Məryəmin (Allahın ona salamı olsun) hekayəsi. O zaman ki, doğum sancıları onu bir xurma ağacının gövdəsinə tərəf gətirdi. Allah ona (ağacı) gövdəsindən sirkələməyi əmr etdi ki, üzərinə təzə xurmalar tökülsün. Yay vaxtı qış meyvələrinin, qış vaxtı isə yay meyvələrinin olması Allahın ona (Məryəmə) verdiyi ruzilərdən idi.

3 – Allahın yüz il öldürüb sonra diriltdiyi kişinin hekayəsi

4 – Rahib Cureyhin hekayəsi

5 - Bəni İsraildən olan üç nəfərin hekayəsi. Hansılar ki, mağaraya daxil oldular və mağaranı böyük bir daş bağladı.

Bunlardan başqa da, elm əhlinə bəlli olan, Quran və Sünnədə isbat olunanlar vardır. Həmçinin, sələfi-salehin və onlardan sonra gələnlərin həyatında...

**Sual 91.**

Kəramətin olması bitmişdir, yoxsa hələ də davam edir?

**Cavab:**

Kəramət bu ümmətdə Qiyamət saatına qədər olacaqdır. Çünki onun (kəramətin) səbəbi (Allahla) dostluqdur. Dostluq da, Qiyamət saatına qədər mövcuddur.

**Sual 92.**

Hər qeyri-adi bir şey edən övliya sayılırmı?

**Cavab:**

Kim insanların adətlərinə uyğun olmayan bir şeylə gələrsə, bu onun Allah qatında təmizə çıxarmaq və onun dostu olmasına dəlil deyildir. Hətta bütün əməlləri Kitab və Sünnəyə uyğun olmadıqca. Həmçinin gərək o ikisinə (Quran və Sünnəyə) müvafiqliyi və tabeçiliyi, zahirən və batinən bilinsin.

## On beşinci dərs

## Müsəlmanların əmr sahiblərinə qarşı olan səhih əqidə

**Sual 93.**

Əhli-Sünnənin əmr sahiblərinə qarşı olan etiqadı nədir?

**Cavab:**

Əhli-Sünnə etiqad edir ki, Uca Allah möminlərə, əmr sahiblərinə (Allah və rəsuluna) asiliyindən başqa (hər bir şeydə) itaət etməsini vacib etmişdir. Allah rəsulu (sallAllahu aleyhi və səlləm) Ubədə ibnus Samitin hədisində buyurmuşdur: "Çətinliyində və asanlığında, xoşladıqda və xoşlamadıqda, sənə əta etdikdə. Əgər malını yesə, arxandan vursa belə, asiliyindən başqa (hər işdə əmr sahiblərini) eşit və itaət et!"[110]

**Sual 94.**

Əmr sahiblərinə qarşı çıxmaq olarmı?

**Cavab:**

Olmaz! Əhli-Sünnə vəl camaat, hakimlərə qarşı çıxmağı pislik v ə zülm etsələr belə haram olduğunu etiqad etmişdir. Hətta onlarda Allahdan (Kitab və Sünnətdən) açıq-aşkar küfrə dəlalət görmədikcə. Allah rəsulu (sallAllahu aleyhi və səlləm) demişdir: "Əgər kiminsə üzərinə başçı təyin edilərsə və ondan Allaha asilik görərsə, gətirdiyi asili inkar etsin. Əlini onun (başçının) itaətindən çəkməsin."[111]

**Sual 95.**

Hakimlərə qarşı çıxanların aqibəti nədir?

**Cavab:**

Camaatdan ayrılanı Allah bu dünyada və Axirətdə etdiyinə qarşılıq olaraq şiddətli cəza ilə qarşılayacaq.

Buna aiddir: "Kim itaətdən çıxmış və camaatdan ayrılmış halda ölərsə, ölümü cahillik ölümü kimidir. Kim camaatı bölərsə, bu əzəmətli günahına görə kitabındakılardan (yazılanlardan) soruşulmaz. Kim camaatı bölərəə, Qiyamət günü Allah qatında onun heç bir hüccəti (dəlili) olmaz"

**Sual 96.**

Sələfilər başçıya dua etməyi müstəbəh saymışdırlar. Bunu açıqla.

**Cavab:**

Əmr sahiblərinə - onların islahı və bağışlanması üçün dua etmək bəyənilən və təkid ediləndir. Həmin kəsin əhli-sünnədən olmasına bir işarədir. Fudeyl ibn İyəd buyurur: "Əgər mənim (qəbul olan) bir duam olsaydı, onu sultandan başqasına etməzdim."
Əgər azğınlıq edib zülm etsələr belə, onların əleyhinə deyil, islahı üçün dua etməyə əmr olunmuşuq. Çünki azğınlıq öz nəfsləri və müsəlmanlar üçün, islahları da öz nəfsləri və müsəlman üçündür. Allah rəsulu (sallAllahu aleyhi və səlləm) buyurur: "Əmr sahiblərini

110 İbn Hibban öz Səhihində (4645) yaxşı sənədlə rəvayət etmişdir. Hədisin əsli iki səhihdədir. (Buxari və Muslim) İbn Əbi Asim Sünənində rəvayət edib. (2/225) Şeyx Albani, Ziləli əl-Cənnəti – də səhihləşdirmişdir.
111 Muslim – Auf ibn Məlikdən rəvayət etmişdir.

aldatmayın, söyməyin və qəzəbləndirməyin! Allahdan qorxun və səbr edin. Hesab günü yaxındır!”[112]

## On altıncı dərs

## Dində mübahisə etməyin qadağan olunması

**Sual 97.**

Dində mübahisə etmək haqda Əhli-Sünnənin mövqeyi nədir?

**Cavab:**

Əhli-Sünnə vəl cəməa dində cədəl və mübahisə etməyi qadağan etmişdir. Artıq peyğəmbər (sallAllahu aleyhi və səlləm) bundan çəkindirmişdir. Tirmizi və İbn Məcədə Əbu Umamədən rəvayət edilir ki, Allah rəsulu dedi: “Heç bir qövm üzərində olduğu haqdan, (dində) mübahisə etməyincə azmadılar. Sonra bu ayəni oxudu: ***“Onlar bunu sənə yalnız höcət etmək üçün dedilər.”***”[113]

**Sual 98.**

Dində bəyənilməyən mübahisə nədir?

**Cavab:**

O – batilə mübahisə etmək, yaxud bəyanından sonra haqla, yaxud mübahisə etdiyi şeydə dəlili bilmədən, yaxud Quranda mütəşabihlərlə (bənzər ayələrlə) mübahisə etmək, yaxud saleh (doğru) niyyət olmadan və s.dir.

**Sual 99.**

Dində bəyənilən mübahisə nədir?

**Cavab:**

O, elmlə, saleh niyyətlə və mübahisənin ədəblərinə əməl edib haqqı üzə çıxarmaq və onu bəyan etmək üçün edilən mübahisədir. Bu bəyənilləndir. Uca Allah buyurur: ***“(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et.”***[114]

**Sual 100.**

Dinimizdə olan mübahisələri zikr et

**Cavab:**

112 İbn Əbu Asim Sünnəsində rəvayət etmişdir. (1015); Beyhəqi, Şuabul İmən, 7264

113 Zuxruf, 58
114 Nəhl, 125

Uca Allah bizə İbrahimin öz qövmü ilə və Musanın Fironla mübahisəni zikr etmişdir. Sünnədə isə Adəmin Musaya hüccət gətirməsi. Sələfi salehdən çoxlu mübahisələr nəql olunmuşdur. Hamısı bəyənilən mübahisələrdir ki, özündə bunları cəm etmişdir:

1. Elm
2. (Saleh) niyyət
3. (Sünnəyə) tabeçilik
4. Mübahisənin ədəbləri

## On yeddinci dərs

## Həva (Bidət) əhli ilə oturmaqdan çəkindirmək

**Sual 101.**

Həca (bidət) əhli ilə oturmaqda əhli-sünnənin mövqeyi nədir?

**Cavab:**

Əhli-Sünnə vəl Cəməat həva və bidət əhli ilə oturmaqdan şiddətli şəkildə çəkindirmişdir. Çünki onların məclislərində Allahın əmrinə müxaliflik vardır. Onları və onların məclislərini sevmək, onların azğınlığının arxasınca getmək və batil üzərində onlara tabe olmaq kimi təhlükəlidir.

Uca Allah buyurur:

***Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman, onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan (bunu) sənə unutdursa, xatırladıqdan sonra zalım camaatla birgə oturma.***[115]

İbn Abbas (Allah ondan razı olsun) buyurur: “Dində hər bir yenilik edən və hər bir bidətçi Qiyamət gününə qədər bu ayənin hökmünə daxildir.”

Qurtubi bunu öz təfsirində ondan (İbn Abbasdan) nəql edərək demişdir: “Həva (bidət) əhli ilə oturma! Çünki onların məclisləri qəlbləri xəstələndirir.”[116]

**Sual 102.**

Bidət və həva əhli kimlərdir?

**Cavab:**

İbn Teymiyyə buyurur: O bidət ki, Kitab və Sünnəyə müxalifətdə elm əhli arasında məşhurdur, onu edən kişi həva əhli (bidətçi) sayılır.[117]

115 Ənam, 68
116 Təfsir Bəğavi, 2/401
117 Fətəva əl-Kubra, 4/194

# *Mündəricat*

**Birinci dərs**
**Rububiyyət tövhidində səhih əqidə .........................................................................4**

**İkinci dərs**
**Ad və sifətlər tövhidindəki səhih**
**əqidə .....................................................................................................................6**

**Üçüncü dərs**
**Üluhiyyət (ibadət) tövhidində səhih əqidə ...........................................................8**

**Dördüncü dərs**
**İmanın altı şərtində səhih əqidə .........................................................................10**

**Beşinci dərs**
**Mələklərə imanda səhih əqidə ...........................................................................11**

**Altıncı dərs**
**Nazil olunmuş kitablarda səhih əqidə ...............................................................16**

**Yeddinci dərs**
**Aləmlərin Rəbbinin rəsullarına səhih etiqadla inanmaq ...................................19**

**Səkkizinci dərs**
**Axirət gününə inanmaqda səhih əqidə ...................................................23**

**Doqquzuncu dərs**
**Qəza və qədərdə səhih iman ...................................................26**

**Onuncu dərs**
**İmanda səhih əqidə ...................................................28**

**On birinci dərs**
**Böyük günah edənin hökmündə səhih əqidə ...................................................31**

**On ikinci dərs**
**Allah rəsulunun səhabələrinə qarşı olan səhih əqidə ...................................................34**

**On üçüncü dərs**
**Allah Nəbisinin əhli-beytinə olan səhih əqidə ...................................................38**

**On dördüncü dərs**
**Övliyaların kəramətində səhih əqidə ...................................................39**

**On beşinci dərs**
**Müsəlmanların əmr sahiblərinə qarşı olan səhih əqidə ...................................................41**

**On altıncı dərs**
**Dində mübahisə etməyin qadağan olunması ...................................................43**

**On yeddinci dərs**
**Həva (Bidət) əhli ilə oturmaqdan çəkindirmək ...................................................44**